# Pyesdən tamaşaya



**Bəhram OSMANOV**

*Azərbaycan və Kalmıkiya Respublikasının Əməkdar incəsənət xadimi, rejissor*

**B.Osmanovun "Pyesdən tamaşaya qədər keçən yol" (Tamaşa hazırlığı barədə mülahizələr) silsilə yazılarının çapını davam etdiririk. Rejissorun Migel de Servantesin "Don Kixot" əsəri barədə qeydləri "Ədəbiyyat qəzeti"nin 26 noyabr 2022, 3-9 yanvar 2023 tarixli saylarında dərc olunub.**

## Əli Əmirli: "Köhnə ev"

### İkihissəli dramatik komediya

Komediya. Komediya?.. Komediya!..

Dramatik komediya!..

Tragikomediya!..

Lirik komediya!..

Hər bir müəllif XX əsrin 80-ci illərindən başlayaraq yazdıqları əsərləri məhz bu janr üslubunda təqdim edir. Komediyanın yanına dram, dramın yanına komediya sözü əlavə edib düşündüklərinin fabulasını qururlar. İndiki dövrümüzdə isə istədikləri janrları uydurub yazırlar...

Axı niyə komediya?

Haradan yaranıb bu komediya?

Əli Əmirlinin yumor hissi ilə heç bir problemi yoxdur. O, nə M.F.Axundovdan, nə də C.Məmmədquluzadədən geri qalır.

Amma evlərini, ailələrini itirən insanlara axı necə gülmək olar?

Bu artıq şübhə doğurur.

Ə.Əmirlinin yumoru "Köhnə ev" pyesində məhz ondan ibarətdir ki, evini, ailəsini, həyatını itirən adamlar onun qiymətini bilmirlər, törətdiklərini şüurlu surətdə edirlər.

Deməк, "Köhnə ev" pyesi daha çox tragikomediyadır...

Müasir!..

Çünki müasir komediyalar daha dəhşətli olur!..

İnsanlar hər şeyə istehza ilə yanaşırlar!..

Ə.Əmirlinin pyesi müasir həyat tərzini göstərir. Və bu müasir həyat tərzi şişirdilərək gülməli olur.

Bəlkə də əsər işgüzar Yetimlə (Sahib), dövrün tələbinə uyğun yaşamaq istəyən Cana və işgüzarlığı bacarmayan "tənbəl" Zəhra, alfons Kamran Qızılsəs haqqındadır?

Bəli, onlar varlanmaq, qazanmaq, işləmək istəmirlər. Bu tənbəllik də prinsipdəndir: biz yaşamağa başqa cür baxırıq. Onların həyata baxış fəlsəfəsi bu cürdür. Var-dövləti itirərək, qurban olmaq, yazıq görünmək "sahib" olmaqdan daha yaxşıdır. Vətən başqa şeydir. Vətəndə dəyişən cəmiyyət tələbləri, reformalar başqa şey!

Məhv olmağın faciəsi!..

Həyatın komediyası!..

Xarakterlər!.. Əvvəl xarakterlərin dramı, sonra ideyaların dramı.

Sahib - "ləyaqətli adamdır". Qışqırmır. Varlılar heç vaxt qışqırmırlar.

Onun ləyaqəti olacaq, baş verəcəklər barədə əvvəlcədən xəbər verməkdən ibarətdir.

Mələk "xoş" sözləri çox sevir.

Hər bir personajın bir-biri ilə ünsiyyətini səhnədə göstərmək lazımdır.

Haçalanan baxışların ritmi...

Zəhra xanım günahkardır... Onun günahı yaşadığı "elit" həyat prinsipləri üzərində qurulduğundan, həyatın zərbələrinə də reallıq kimi yox, səhnə həyatı kimi baxır. Əks təqdirdə məhv olar... Buna görə də ətrafda baş verənləri yeni səhnə oyununa hazırlıq kimi qəbul edir...

Qızı Cana çəkir də, içir də... lakin Sahiblə qarşılaşanda hər şeyi unudub döyüşə hazır vəziyyəti alır.

"Traviata"... Zəhra və Kamran Qızılsəsin son məhəbbət macəralarının simvolu!..

Ata - Qüdrət Qurbanoviç çoxdan neft daşlarında işləmir. Onun nə vaxt işlədiyi çoxdan yadından çıxıb. O, məşhur neftçidir. Əmək qəhrəmanıdır. Amma sonuncu dəfə nə vaxt neft çıxardığını unudub. O, illərdir görüşlərdə xatirələr danışmaqla məşğuldur. Onun evdən çıxıb qocalar evinə getməsi təkcə "ölüm" teması yox, artıq olması ilə bağlıdır.

Məşuq - Kamran Qızılsəs - yelpənəkdir, manpasıdır. O, manpası sorur ki, səs telləri həmişə yumşaq və nəm olsun. Onun çörəyi oxumaqdan çıxdığı üçün bu vərdişə adət edib.

Türkiyədən gəlmiş Böcək elə böcəkdir. Onu pul və istirahət maraqlandırır. Sonra o, böcək kimi də bir kimsəyə lazım olmayıb uçub gedəcək, yoxa çıxacaq..

Pyesdə yaranan əsas sual (tapmaca): onlar niyə Sahibin təklifinə bu qədər ağrı ilə yanaşırlar? Başa düşmürlər yoxsa? Axı onlar rahat yaşamaq istəyirdilər. Sahib də onlara rahat həyat təklif edir... Yoxsa onlar kardılar, ətrafda baş verənləri eşitmirlər?! Yoxsa kordular ətrafda olanları görmürlər?! Burada başqa səbəb var.

Zəhra - ətriyyat çantası.

Yetim (Sahib) - yaraşıqlı geyim

Mələk - məcməyi.

Kamran - qırmızı pencək, manpası.

Böcək - zanbaq.

Qüdrət - qəzet.

Cana - cins, krossovka.

Tələskənlik.

Qapıların çırpılması.

Traviata.

Sakitlik. Çamadanların bağlanması. Yırğığış. Portret. Atılmışlar.

Xatirələr yığnağı. Dağıntı. Son.

Nə olacaq?

Mələk süfrəni bəzəyir. Qonaq gözləyirlər. Vəssalam? Axı hadisə yoxdur.

Belə olan surətdə bəs aktyorlar nə oynasınlar?

Məsələ bundadır ki, Əli Əmirlinin pyeslərində ənənəvi dramaturgiya qaydaları pozulur. (Hər halda onun bir çox pyeslərində belədir.) Onun əsərlərində çox vaxt (əsasən birinci hissədə) heç nə baş vermir. Xarici əməl yox səviyyəsindədir. Tam hərəkətsizlik. Sanki hər şey donub. Dialoqlar isə söz oynatmasından başqa bir şey deyil.

Lakin bu o demək deyil ki, "heç nə baş vermir"in arxasında doğrudan da heç nə baş vermir. Tədriclə atmosfer sıxılır, gərginlik artır. Və sanki hər şey hərəkətsizliyə tabe olub sıxılaraq darmadağın olur.

Mələk!

O, yaxşı bilir ki, indiki vaxtda qonaqlıq artıq xərcdir. Amma vacib qonağı mütləq təntənə ilə qarşılamaq lazımdır. Qüdrət Qurbanoviç istəməsə də Zəhra xanım tapşırıb. Daha doğrusu bu evdə çoxdan idarəçiliyi ələ almış Canadan Zəhra xahiş edib ki, keçmiş məşuqu, məşhur opera müğənnisi Kamran Qızılsəsi təntənə ilə qarşılamaq lazımdır. Öz adlarına layiq!

Onun adına layiq!

Nəhayət, vaxtilə olmuş sevgi naminə!

Ah, bu sevgi!

Ah, qadınlar, qadınlar!

Belə qadınlar indi gülünc görünürlər!

İndiki gənc xanımlar daha çox praqmatikdirlər nəinki romantik?!

Daha doğrusu onlar praqmatik olmağa çalışırlar...

Əgər praqmatik olmasalar nəinki özləri, ən yaxın qohum-əqrəbaları da məhv olarlar.

Əslində elə doğmaların naminə praqmatik olmalı və çətin iqtisadi vəziyyətdən çıxış yolu tapmalıdırlar.

Hələlik isə...

Hələlik isə heç kəsə lazım olmayan qonaqlığa hazırlıq gedir...

Mələk:

- Yaxşı deyiblər, kiminin əvvəli, kimin axırı. Stol bəzəməyi də yadırğamışam. Bəlkə salatı... yox, bura qoysam yaxşıdı. İkranı da... ikraya bax da, elə bil mazutdu. Hər şeyin xarabı çıxdı. Hara getdi o çornı smorodina boyda dən-dən ikralar? Axı nə oldu, balıqlar da alverə qurşanıb, ta ikra istehsal eləmirlər?!

Qüdrət:

- (gəlir) Bu nə qonaqlıqdı? Ölkə dağılıb gedir, millət düşüb küçələrə qarışqa kimi qaynayır, bir tikə çörək axtarır, sən də burada stol bəzəyib süfrə açırsan? Yoxsa elə bilirsən köhnə əyyamdır, sovet dövrüdü?

Ancaq söhbət.

Ancaq məlumat və bir-biri ilə mübahisə!

Donquldanma. Gücləri ancaq özlərinə və donquldanmağa çatır. Bu yaşlı adamlar doğrudan da heç nə başa düşmürlər. Nə baş verdiyini əslində anlamırlar. Bircə şeyi bilirlər ki, onları heç kəs daha saya salmır. Onlarla hesablaşan, məsləhətləşən yoxdur.

Qüdrət:

- O gün zəng eləyib köhnə bir dostumu təbrik eləyirəm bayram münasibəti ilə, deyir nə bayram, Qüdrət Qurbanoviç, indi yeddi noyabr bayram deyil, matəmdir. Zəhmət çəkmişdik, dünya qurmuşduq... axırda da uşaq-muşaq gəlsin ki, bəs biz azadıq, tamam müstəqilik? (gedir)

Mələk:

- Bu da getdikcə xərifləyir, amma düz deyir də. Necə qonaqlıqlar eləyərdik...

Qonaqlıq!

Axı doğrudan da bir çox vacib məsələlər həmişə qonaqlıqlarda həll olunur...

Cana lazım olan ərzaqları gətirir.

Sonra çəkilən xərci hesablayır...

Sahib (Yetim) görünür...

Sahib:

- Düz çıxmır?

Cana:

- Siz... necə gəldiniz...

Sahib:

- Qapı açıq idi... açıq qapıdan da girərlər.

Demək bu evdə yel vurur, yengələr oynayır. Bu evə artıq hamı girə bilər.

Cana:

- Mən bilən siz bağlı qapıdan da yan keçməzsiniz.

Sahib:

- Bu komplimentdir?

Cana:

- Bağışlayın, çox vaxt hisslərimi gizlədə bilmirəm.

Qəribədir ki, Sahib otağı addım-addım ölçür, Cana da düşüb onun arxasınca. Dialoqlar sürətlə ötüşür. Cana həyəcanlıdır. Sahib sakit. Cana hürkür. Sahib qorxmur. Cana məğlubdur. Sahib qalib. Sonda məlum olur ki, Cana evi Sahibə satıb. Və bu alqı-satqını evin əsl sahibi Qüdrət Qurbanoviç bilmir!

Hadisə: "Ev satılıb".

Zəhra gəlir. Onun əhvalı evdəkilərdən fərqli olaraq çox şəndir. Bəzənib-düzənib. Axı o, sonuncu məşuqunu qarşılayacaq. Kamran onun uzun illər opera səhnəsində tərəf-müqabili olub, sonra isə teatrlarda tez-tez müşahidə olunan məşuquna çevrilib. O, keçmiş məşuqun qarşısında gözəl görünməlidir. Kamran onu görəndə bilməlidir ki, Türkiyəyə qazanc dalınca getməyə ehtiyac yox idi. Kamranın qazancı Zəhra xanım idi! Amma o, bunu başa düşmədi.

Getdi Türkiyəyə məşhur olmağa!

Pul qazanmağa!

Zəhra isə pul nə olduğunu heç vaxt başa düşməyib!

Onun sənəti olub!

Qastrollar!

Hörmət!

Şan-şöhrət!

Və bir də sevgi!

O, heç Canaya da baxmayıb, onu Mələk böyüdüb. Ərə getməyib, qarıyıb. Zəhranın anasının yanında yaşayan Mələk. Və Mələyin bacısı, Qüdrətin arvadı cavan rəhmətə getdiyindən Mələk meylini salıb onun övladlarına və Qüdrətə!

Və Mələk yaxşı bilir ki, onun bu ailədən başqa bir kimsəsi yoxdur. Ona görə də gücü çatdığı qədər bu ailəni qorumağa çalışır.

Mələk Kamranı xoşlamır. İyirmi il Zəhra ilə fırlandı, sonra onu atıb getdi. İndi də Zəhra onun şərəfinə qonaqlıq təşkil edir. Belə olmaz! Bu heç bir əxlaq normalarına sığmır!

Müasirlik?!

Bu lap ağ oldu!

Yenə söz oynatmaları!

Sən demə Kamran Zəhradan on yaş kiçik imiş!

Fakt!

Hadisə isə görünmür.

# qədər keçən yol



Sən demə evi alan varlı Sahib uşaq evində böyüyüb. Adı da Yetim olub. Sonradan adını dəyişərək Sahib qoyub. Əlbəttə, pulun gücünə. İndi pulun gücünə hər şey etmək mümkündür. Sahib adı ona daha yaxşı yaraşır. Hər şeyin Sahibi!

Olanların sahibi!

Fakt.

Zəhra:

- Mən camaata necə deyəcəyəm ki, gül kimi evimi satıb Yamasala köçmüşəm, dünyanın o başına. (Zəhra Yasamala Yamasal deyəcək. Özünün dediyi kimi dili öyrəşməyəcək Yasamal sözünə.) Axı mən Torqovidan o tərəfi tanımıram. Dünyanın əlli ölkəsində olmuşam, amma Yamasala yolum düşməyib. SSRİ xalq artisti Zara xanım Yamasalda yaşayacaq! Hələ papa, ürəyi partlayacaq!

Cana yenə otaqda vurnuxur. O, yaxınlarının məğlub olmalarına dözə bilmir. Amma yaşamaq üçün yeganə çıxış yolu evi satmaqdır! Yaxınları isə onu başa düşmür, baş verənlərdə özlərini yox, məhz Cananı günahlandırırlar.

Sahib isə öz işindədir.

O, sahib olduğu evi əzizləyə-əzizləyə indi daha çox qiymətləndirir, gələcək təmir işlərini düşünür, planlarını qurur. Ətrafdakı danışıqlara əhəmiyyət vermir!

Qüdrət:

- (otağından çıxır) Bu nə balıq iyidir belə? Çoxdandır bu iyi almıram. Yadıma keçmiş günlər düşdü. (Hamı babaya, ataya qulaq asır. Bu evdə adət belədir. Hamı-hamıya hörmətlə qulaq asmalıdır. Bu kübar aləmin qaydalarından biridir.) Necə balık verirdilər qurultaylar sarayında. Hələ ikra: qara, qırmızı. İşığı düşərdi adamın üzünə qırmızı ikranın. Şvedski stol, ye yeyə bildikcə. Xalq gözəl, firavan yaşayırdı. Hayıf o günlərdən. Dalınca da "Lebedinoye ozero". Xalq necə gözəl, firavan yaşayırdı.

Sahib:

- Xalq da olurdu oralarda?

Qüdrət:

- (o indi Sahibi gördü) Bu kimdi? Mən bunu tanımıram.

Cana indi ayıldı ki, Sahib bu evdə artıqdır. O, bu gün bu evdə olmamalıdır. Amma onu qovmaq ədəbsizlikdir. Olmaz! Bir də axı indi bu evin sahibi odur, onlar isə qonaq!

Bəs necə olsun!

Mələk Qüdrəti bir təhər otağına aparır.

Sovuşdu!

Qüdrət heç nə bilmədi!

Bir təhər bu günü keçirsələr, sabaha Allah kərimdir!

Bu Zəhra xanımın xahişidir!

O, keçmiş məşuqunu bu evdə təntənəli qarşılamalıdır! Kamran bilməməlidir ki, Zəhra pis yaşayır.

Sahib:

- Bu qulluqçunu da alardım. Məndən zəhləsi getsə də, bu evi onsuz təsəvvür etmək çətindir. Həm də əntiq bir şey kimi.

Zəhra:

- Siz nə danışırsınız, nə qulluqçu? O mənim xalamdır, anamın bacısı. Ailə qura bilməyib, həmişə bizimlə olub. Biz onu verə bilmərik.

Sahib:

- Starı devadır?

Zəhra:

- Rica edirəm, o sözü bir də dilinizə gətirməyin bizim evdə. Straşnoye slovo.

Qeyd: Bu evdə təkcə Mələyə görə yox, Canaya görə də bu sözü işlətmirlər. Cana da artıq yaşlaşıb, ərə getməyib. Və Zəhraya görə onların bütün əziyyətlərini, yükünü çəkdiyinə görə, yəqin heç vaxt ərə getməyəcək!

Qonaqlar gecikir. Hamı darıxır. Sahibin bu evdə özünü sahib kimi aparması onları darıxdırır, boğur. Sahib də bunu hiss edir. O da onlarla birgə sıxılır.

Sahib:

- Qonaqlar gəlincə getsəm yaxşıdır.

Cana:

- Gedirsiniz?

Sahib:

- Qalmaq istəsəm də getməliyəm, artıq görünürəm, yerinə düşməyən suallar ola bilər, evdə də qəşəng, ərlik qız.

Cana:

- Bu sizi qorxudur?

Sahib:

- Boynuma alım ki, bir az... qorxudur.

Cana:

- Naxal! Özünü elə aparır ki, guya Rokfellerdir.

Cana bu sözü Sahib gedəndən sonra deyir. Üzbəüz olsaydı bəlkə də deməzdi. Axı Sahibin xətrinə dəymək olmaz. Çünki o, xilaskardır. Bir evi almaqla Sahib onlara Yasamalda da olsa iki təmir olunmuş ev və əlavə pul verib. Cana bu pulla nəsə edə bilər. Evlərdə qocaları yerləşdirə bilər, özü də ayrı yaşayar. Bəlkə bu rahatlıqdan sonra öz həyatı barədə düşünə bilər. Hələlik isə bunlar ancaq xəyallardır. Evdən köçənə qədər isə narahatlıqdır, rahatlıq barədə hələlik söhbət gedə bilməz!

Bəs Sahib?

O, qəşəng, ərlik qız deyəndə nəyə işarə edirdi?

Zəhra:

- Cana, o səni sevir.

Cana:

- Ətimizi tökmə.

Zəhra:

- Mən sənə söz deyirəm.

Cana:

- Mama, sən hər şeydə sevgi görürsən.

Zəhra:

- O sənə vurulub, bir azdan qayıdıb gəlməsə, mən heç nə qanmıram bu dünyada. Lap bu gün gələcək.

Cana:

- Güldürmə bizi, mama. Onların dünyasında sevgi, məhəbbət anlayışı yoxdu. Orda hər şeyi pul, dollar həll eləyir...

Bəlkə Zəhranın bu sözləri doğrudan da Cananı ayıdacaq və bir praqmatik kimi gələcəkdə Sahibə başqa gözlə baxacaq?

Bəlkə hər şeyin alınıb-satıldığı bir cəmiyyətdə məhəbbət də alınıb-satıla bilər?!

Canaya isə hələlik bu barədə düşünmək tezdir. Ona rahatlıq lazımdır.

Amma anasının ideya kimi atdığı fikir barədə düşünmək olar. Söhbət Sahibdən getmir. Olsun bir başqası. Amma bir qədər diribaş olsun. Çünki Canaya tək çətindir.

Birdə ki onun indi pulu, evləri var. Bu isə indiki zəmanədə əsas şərtdir.

Fakt: Hər şeyi almaq və satmaq artıq mümkündür.

Qapı zəngi!

Nəhayət bu evdə də qapı zəngi çalınarmış.

Cana:

- Deyəsən gəldilər. Zəng səsindən bilindi ki, qapı arxasındakı Kamran Qızılsəsdir.

Zəhra:

- Açma, açma.

O, otaqdakı iri kaminin yanına qaçaraq xüsusi poza alır. O, həmişə Kamranı bu cür qarşılayıb. Əzəmətli, vüqar, gözəl.

Kamran evə ildırım sürətilə girir. O, əvvəlki Zəhranı görəcəyini düşünürdü. Amma əksini gördü, Zəhra gözəl də görünsə artıq əvvəlki Zəhra deyil. Amma özünü o yerə qoymur. Yalan danışır. O artıq Türkiyədə yaşadığı illərdə yalan danışmağı öyrənib.

Kamran:

- Zara, sən elə həminki kimi gözəlsən, nəcibsən, Zara...

Qeyd: Zəhranın nəcibliyi Kamranı olanlara baxmayaraq arvadı ilə qonaq kimi qəbul etdiyinə işarədir.

Zəhra:

- Göstər mənə arvadını, Kamran bəy.

Kamran:

- Budur mənim karım - Böcək. Böcək, lütfən tanış ol...

Zəhra Böcəyi görəndən sonra anladı ki, artıq qocalıb. Çünki Böcək ondan çox kiçikdir. Az qala qızı Cana yaşındadır. Və Zəhra anladı ki, daha əda etməyə, özünü göstərməyə lüzum yoxdur. Odur ki, göz yaşını gizlətmək üçün otaqdan çıxır. Gərgin bir pauza yaranır. Kamran da, Cana da pərtdilər. Kamran belə etməməliydi. Kamran bu evə həmişəki kimi tək gəlməli idi. Amma o...

Böcək:

- Sayın Zəhra hanım bumu?

Kamran:

- İlahi, yəni bu həmin Zəhradır? Zəhra xanım? Necə qocalıb... Yox, düz demədim, qocalmayıb... belə... düşüb.

Cana:

- Heç siz də qalxana oxşamırsınız.

Kamran:

- Həmin bıçaq kimi iti dil, dərman kimi acı sözlər, sərt, soyuq baxışlar. Sevmədin məni.

Cana:

- Mən bilən siz sevgidən korluq çəkmirsiniz.

Cana doğrudan da Kamranı heç vaxt sevməyib. Çünki anası onunla flirt edəndə Cana artıq həddi-buluğa çatmış bir qız idi və anası məşqdən başqa olan günlərini onunla yox, Kamranla keçirdirdi... Həmin vaxtlar isə Canaya məşhur opera ulduzu yox, sadə bir ana lazım idi.

Fakt: Sənət adamlarının övladları çox vaxt öz başına böyüyüb formalaşırlar.

Hamı süfrə ətrafına toplaşıb. Yenə də vəziyyətə uyğun replikalar, söz oynatmaları, keçmişdən nostalji hissləri xatırlamaq və s. Mələk əvvəllərdə olduğu kimi yenə də bişirdiyi dadlı xörəklərdən danışır. Bir anlıq adama elə gəlir ki, hər şey keçmişlərdə olduğu kimidir. Sadəcə olaraq söhbət alınmır. Mətnin alt qatında sanki kimsə-kimsə ilə nəyi isə aydınlaşdırmaq istəyir.

*(Davamı olacaq...)*